**Zibeydə Arif qızı Şəkərəliyeva**

**UOT:338.242;338.33; JEL:D04; O14.**

# Qeyri-neft sektoruna investisiya qoyuluşu və onun tənzimlənməsi

***Xülasə***

*Müasir dövrdə ölkədə neft amili makroiqtisadi parametrlərin formalaşmasında mühüm rol oynayır və ölkənin iqtisadi inkişafına həlledici təsir göstərir. Belə bir şəraitdə qeyri-neft sektorunun inkişaf potensialının tam reallaşması zərurəti meydana çıxır ki, bu da uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının kompleks inkişafı nəticəsində onun xarici amillərin mənfi təsirindən etibarlı qorunmasını təmin edən iqtisadi mexanizmlərinin yaradılmasını əhatə edir. Son 10 ildə xalqımız üçün əlamətdar olmuş, respublikamızın iqtisadi-sosial həyatında yüksək nailiyyətlər əldə edilmişdir. Qısa zaman kəsiyində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin dövlətimiz tərəfindən qətiyyət və inamla gerçəkləşdirilməsi sayəsində Azərbaycan sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük əksəriyyəti öz həllini tapmış, respublikamızın sosial-iqtisadi potensialının dünyada baş verən qlobal iqtisadi böhran fonunda davamlı inkişafı, makroiqtisadi sabitlik və iqtisadiyyatın diversifikasiyası təmin olunmuş, istənilən istiqamət üzrə qəbul edilmiş konkret proqramlar və bütün sosial layihələr vaxtında icra edilmişdir.*

***Açar sözlər:*** *qeyri-neft sektoru, investisiya, idxal-ixrac, investisiyaların tənzimlənməsi, qeyri-neft sənayesi*

## Giriş

İqtisadiyyatın diversifikasiyası, regionların sosial-iqtisadi inkişafı, əhalinin istehlak malları ilə təşkilatının gücləndirilməsi, infrastrukturun yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemi və ardıcıl reallaşdırılmasında müvafiq dövlət proqramları, o cümlədən, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008; 2009-2013; 2014-2018-ci illər, 2019-2023), “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” mühüm əhəmiyyət kəsb edir.

## Qeyri-neft sektorunun inkişafı üçün yaradılan mühit

Qeyri neft sektorunun şaxələndirilməsi, yeni texnoloji infrastrukturların qurulması, innovasiya xarakterli texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi, məhsul istehsalında əldə edilmiş kəmiyyət və keyfiyyət artımı ölkəmizin ixrac potensialını daha da möhkəmləndirmiş, son on il ərzində xarici ticarət tərəfdarlarımızın sayı iki dəfə artaraq 182-ə çatmışdır.Hal-hazırda qarşıda duran əsas vəzifə qeyri-neft sektorunda ixracın artmasına nail olmaqdır. Belə ki, 2020-ci il ərzində Azərbaycanın ümumi ixracı 13,7 milyard ABŞ dolları, qeyri-neft vsektoru üzrə isə 1,9 milyard ABŞ dolları dəyərində olub. Qeyri-neft sektoru üzrə ixrac 2019-cu illə müqayisədə 102 milyon ABŞ dolları və ya 5,2 % azalıb.Belə ki, 2020-ci il ərzində Rusiyaya 691 milyon, Türkiyəyə 377,8 milyon, İsveçrəyə 224,8 milyon, Gürcüstana 127,6 milyon və Çinə 44,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilmişdir. Ölkədə COVİD-19-un vurduğy ziyanlara baxmayaraq qeyri-neft sektoru inkişaf edir. Qeyri-neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatının prioritetidir.Belə ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər”də də bu məsələyə xüsusi diqqət yetirilir. Tədqiqatlar göstərir ki, bu gün milli iqtisadiyyatın davamlı inkişaf modelinə keçidin təmin edilməsi həlledici dərəcədə insan kapitalının həcm və keyfiyyəti ilə bağlıdır.Ölkədə maliyyə və bank sektoru, kənd təsərrüfatı,turizm və İKT inkişafı diqqət



*©Zibeydə Arif qızı Şəkərəliyeva i.ü.f.d., dos. AzDİU (UNEC). E-mail: zibeydashakaraliyeva1977@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

mərkəzindədir.Ölkədə qəbul edilmiş Strateji Yol Xəritələrində logistika və ticarətin inkişafı da prioritet istiqamət təşkil edir. Bu sahələrin inkişafı isə investisiyaların cəlb edilməsindən, onlardan səmərəli istifadə edilməsindən bilavasitə asılıdır. Qeyri-neft sektorunda görülən işlərin təhlili bir daha sübüt edir ki, Azərbaycan əvvəlki kimi yenə də investisiya qoyuluşu baxımından dünyanın ən cəlbedici ölkələrindən biridir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2020-ci ildə 72432,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz az Ümumi Daxili Məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz, neft-qaz sektorunda isə 7 faiz azalmışdır. ÜDM istehsalının 33,7 faizi sənaye, 11,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,7 faizi tikinti, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil etmişdir. İqtisadiyyat Nazirlyinin məlumatlarına görə son on ildə qeyri-neft sektoru milli iqtisadiyyatın başlıca artım və inkişaf amilinə çevrilib. Bu müddət ərzində qeyri-neft sektoru 48 faizdən 70 faizə qədər artıb. Bu sektorun inkişafına əlverişli olan sənaye zonalarında indiyədək bütün istehsalın həcmi 4,3 milyard manatdan çox, qoyulan investisiyaların həcmi isə 6,1 milyard manatdan çox olub. Bu dövr ərzində birbaşa xarici investisiyaların həcmi 57 milyard dollar təşkil edib.

**Qeyri-neft sektorunda investisiya siyasəti**

Göstərmək lazımdır ki, hazıradək Azərbaycan iqtisadiyyatının inkişafına 260 milyard ABŞ dolları məbləğində daxili və xarici investisiya yönəldilmişdir. Əgər 2003-cü ildə əsas kapitala yönəldilmiş investisiyaların yalnız 26,8 faizi qeyri-neft sektorunun payına düşürdüsə, 2020-ci ildə bu göstərici təxminən 3 dəfə artaraq 66%-ə çatmışdır. 2020-ci ilin yanvar-dekabr aylarında ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən əsas kapitala 17028,1 milyon manat investisiya yönəldilmişdir.Əsas kapitala qoyulmuş vəsaitin 69,9% daxili investisiyalar, müvafiq dövrdə əsas kapitala ypnəldilmiş ümumi investisiyaların 1148,4 milyon manatı (65,5%-i) qeyri-neft bölməsinin, 5879,7 milyon manatı (34,5%) neft bölməsinin inkişafında istifadə edilmişdir. Son on il ərzində büdcə xərclərində artım müşahidə edilmiş və bu xərclər sosial və investisiya yönümlü olmuşdur. Bu illər ərzində ölkə iqtisadiyyatının bütün sahələrinə investisiya qoyuluşu davam etdirilmişdir.Kənd təsərrüfatının inkişafı üçün çoxlu sayda aqroparklar yaradılmışdır.Burada investisiya qoyuluşu 2 milyard manatdan çoxdur. Bunlardan əlavə nəqliyyat sektoruna, onun infrastrukturuna böyük həcmdə investisiyalar qoyulmuşdur. Müxtəlif sahələrdə yeni hava limanları tikilir, magistral yollar çəkilir. Dəmir yol nəqliyyatına isə böyük həcmdə investisiyalar yatırılır.Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpü rolunu oynayır, tranzitölkə kimi öz imkanlarını genişləndirir.Ötən dövr ərzində Bakı Dəniz Ticarət Limanının tikintisinə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşdırılması, ölkədaxili avtomobil yollarının çəkilməsinə böyük həcmdə investisiya qoyulmuşdur. Bakı şəhərində isə yeni körpülər, yeraltı keçidlər və digər mühüm obyektlər tikilib istifadəyə verilmişdir.

Azərbaycanın iri həcmli karbohidrogen ixracatçısına çevrilməsi, bu sahədən böyük məbləğdə valyuta ehtiyatlarının daxil olması digər bir sıra neft və qaz ixracatçısı ölkələrində müşahidə edilmiş mənfi meyllərin, xüsusilə də iqtisadiyyatın digər real sektorlarının ixrac potensialının azalması təhlükəsinin sığortalanması üçün dərin elmi tədqiqatlara əsaslanan iqtisadi siyasətin gerçəkləşdirilməsini zəruri edir. Həm beynəlxalq təcrübə, həm də dövlətimizin formalaşdırdığı iqtisadi strategiya neft və qaz ixracatından daxil olan valyuta ehtiyatlarının səmərəli istifadəsinin prioriteti kimi qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahələrin ixrac potensialının yüksəldilməsi olduğunu göstərir. Qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçiriln uğurlu siyasət nəticəsində ölkədə idxaldan asılılığın

azaldılması, ölkənin ixrac qabiliyyətinin diversifikasiyası, həmçinin yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, IKT, turizm komplekslərinin qurulması, xarici və yerli investorlar üçün cəlbedici investisiya mühitinin yaradılması, özəl müəssisələrin fəaliyyə9tinə dəstək verilməsi, rəqabət mühitini təkmilləşdirən institutlara diqqətin artırılması istiqamıtində mühüm uğurlar qazanılmışdır.

Tədqiqatlar göstərir ki, hazırkı şəraitdə ölkənin qeyri-neft sektoruna investisiya qoyuluşlarının cəlb edilməsi və ondan səmərəli istifadənin tənzimlənməsi məsələsinin tədqiq edilməsi olduqca vacibdir. Son illərdə Azərbaycan iqtisadiyyatında formalaşmış vəziyyətin təhlil edilməsi üçün iqtisadiyyata yönəldilmiş investisiyaların sektorlar, növ və iqtisadi sahələr baxımından təhlil edilməsi önəmlidir. Buna görə də respublikada əsas kapitala yönəldilmiş investisiyaların strukturunu müxtəlif istiqamətlərdə təhlil etmək zəruridir. Ümumilikdə, əsas kapitala yönəldilmiş investisiyaların həcmində 2014-cü ildən sonra azalma müşahidə edilsə də 2017-ci ildə yenidən artaraq əvvəlki səviyyəsinə yaxınlaşmışdır. Növbəti üç il ərzində azalsa da 17 milyard manatdan çox olmuşdur. 2014-2016-cı illər ərzində azalma 1,8 milyard manat olmu.dur.

**Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyalar (milyard manat)**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ümumi** | 15,41 | 17,85 | 17,62 | 15,96 | 15,77 | 17,43 | 17,24 | 17,18 | 17,03 |
| **Xarici** | 3,26 | 4,67 | 4,90 | 6,90 | 9,28 | 8,67 | 5,22 | 5,19 | 5,12 |
| **Daxili** | 12,15 | 13,18 | 12,72 | 9,06 | 6,49 | 8,77 | 12,02 | 11,99 | 11,91 |
| **Neft sektoru** | 3,85 | 5,09 | 5,96 | 7,14 | 8,65 | 8,48 | 6,32 | 5,21 | 5,22 |
| **Q/neft sektoru** | 11,55 | 12,76 | 11,66 | 8,82 | 7,12 | 8,95 | 10,91 | 11,98 | 11,81 |

Mənbə:Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.



Əsas kapitala yönəldilmiş investisiyaların həcmində böyük dəyişiklik baş verməsə də onun daxili və xarici investisiyalar baxımından strukturunda əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, xarici investisiyaların illik həcmi 2012-2017-ci illər ərzində 5,4 milyard manat artmışdır.2017-2020-ci illərədə isə 3,55 milyard manat azlmışdır. Son dövrdə respublikamızda xarici investisiyalar ixrac yönümlü emal-sənaye, infrastruktura və aqrar sektor üzrə istehsal sahələrinə yönəldilmişdir. Bundan əlavə neft ve neft məhsullarının ixracından əldə olunan valyutanı milli iqtisadiyyatın digər sahələrinə regionlar üzrə yönəldilməsi təmin edilmişdir. Bu gün respublikanın valyuta ehtiyatlarının cəmi 52 milyard ABŞ dollarından çoxdur.Yaxın gələcəkdə respublikada bu işdə mühüm rol oynayan müştərək müəssisələr, maliyyə sənaye qrupları və transmilli korporasiyaların yaradılması yolu ilə strateji əhəmiyyətli ölkələrlə sıx investisiya əməkdaşlığı məsələlərinə diqqət artırılmalıdır. Qeyd etmək lazımdır ki, daimi fəaliyyət göstərən vergi güzəştləri ilə yanaşı ayrı-ayrl ödəyicilərə fərdi vergi güzəştlərinin verilməsi mexanizminin tətbiqi zəruridir. Nəzərdə tutulan güzəştlər məqsədli xarakter daşımalı, daha çox üstünlük konkret xarici investisiya proqramı və ya layihələrinə verilməlidir. Burada, qeyri-neft sektoru sahələrinin investisiya mühitinin yaxşılaşdırılması, xarici investorların bu sektorun sahələrinə gəlməsi tədbirlərinin şaxələndirilməsi, ixrac yönümlü sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyinin real qiymətləndirilməsi, zəruri tədbirlərin görülməsi, işlək mexanizmlərin tətbiq edilməsi məsələləri də olduqca vacibdir. Respublikada aparılan uğurlu islahatların tələbləri baxımından xarici ticarət dövriyyəsinin, xüsusilə, ixracın strukturunda qeyri-neft sektoruun payının artırılmasının sürətləndirilməsi üçün prioritet istiqamətlərin reallaşdırılması, bu istiqamətlərdə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ayrı-ayrı ixrac elementlərinin gücləndirilməsinin təmin olunması məsələsinə xüsusi diqqət yetirilməlidir.

Respublikada qeyri-neft sektorunun ixrac yönümlü sənaye sahəsinin inkişafının sürətləndirilməsi, dövlət dəstəyi mexanizmləri səmərəliliyinin artırılması, yeni, modern sənaye müəssisələri şəbəkəsinin yaradılmasına böyük ehtiyac vardır. Baxmayaraq ki, bu sahədə son dövrdə böyük uğurlar var. Belə ki, bu məqsədlə Azərbaycan Respublikasında Sənayenin İnkişafına dair 2015-2020-ci illər üçün "Dövlət Proqramı"təsdiq edilmiş, 2014-cü il isə Respublikada "Sənaye ili" elan edilmişdir.Respublikada sənayenin inkişafı iləsənaye parkları və məhəllələrinin yaradılma struktur dəyişikliklərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hal-hazırda Azərbaycanda beş sənaye parkı-Sumqayıt Kimya; Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı Sənaye Parkları fəaliyyət göstərir. 2016-cı ildə yaradılmış Masallı Sənaye məhəlləsində həyata keçirilən layihələrə əsasən mebel, tikinti materialları, plastik tara, qida məhsulları, xalça istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrini əhatə edir. Neftçala sənaye məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə rezident kimi qeydiyyata alınmışdır. 2017-ci ildə Hacıqabul və Sabirabad Sənaye məhəlləsinin yaradılmasına başlanılmışdır. Hacıqabul Sənaye Məhəlləsində aqrar maşınqayırma,xüsusi vaqonqayırma, avtomobil ehtiyat hissələrinin istehsalı nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsində isə yük tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistik mərkəzlərin fəaliyyət göstərməsi nəzərdə tutulur. Sənaye parklarında rezidentlər üçün vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir. Belə ki, sənaye parklarının rezidentləri 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəətvergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlığın və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. Qeyd etmək lazımdır ki, 2019-cu ilə qədər sənaye parklarında 1,5 milyard manatlıq məhsul istehsal olunub.Bu məhsulların 300 milyon manatlıq hissəsi xarici ölkələrə ixrac edilib. İqtisadiyyat Nazirliyinin məlumatlarına görə sənaye zonalarında indiyədək 5 milyard manatdan çox məhsul istehsal edilib. Bunun 1,4 milyard manatlıq hissəsi və ya təxminən 28%-i ixrac olunub. 2021-ci ilin 9 ayında isə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,3%,ixracında isə 25,9% olub.



Son dövrdə Azərbaycanda ixrac potensialını gücləndirə biləcək sənaye zonalarının, sənaye parklarının, sənaye məhəllələri kompleksinin ölkənin təbii ehtiyatları, coğrafi (regional) amilləri nəzərə alınmaqla, təşkili və genişləndirilməsi proseslərinin təşkili məsələlərinə xüsusi diqqət yetirilir. Bu işdə qeyri-neft sektorunda ixrac potensialının yüksəldilməsində xarici investorların iştirakının sürətləndirilməsi, xarici investisiyaların cəlbinin genişləndirilməsi üçün xüsusi iqtisadi zonalar institutunun Azərbaycanın iqtisadi sisteminə daxil edilməsinin başa çatdırılması və bu kimi zonaların yaradılmasına başlanılmışdır.Buna misal olaraq Ələt Azad İqtisadi Zonasını göstərmək olar.Artıq burada geniş bir ərazidə infrastruktur formalaşıb. Artıq fəaliyyət gostərir. Burada yüksək rəqabət qabiliyyətinə malik İKT sektorunun inkişafında intensivləşdirmə proseslərini təmin etmək, bu sahənin ölkə iqtisadiyyatının innovasiyalaşdırılmasında və ixractəyinatlı yüksək elmtutumlu və kapitaltutumlu mal və məhsulların istehsalının həcminin artırılması, xidmətlərin, çeşidinin genişləndirilməsi məsələləri diqqət mərkəzindədir. Son dövrdəAzərbaycanda yeni qeyri-neft sektoru sahəsi kimi – kosmik sənaye sahəsinin ölkəmizdə təşkili və ixrac xidmətlərinin artırılması sahəsində xeyli işlər həyata keçirilmişdir. Bundan başqa metallurgiya sənayesi müəssisələrinin fəaliyyətlərinin sənərəli təşkili ilə bərabər, bu sahədə ixrac potensialının artırılması məqsədilə, rəqabətqabiliyyətli və ixrac oluna bilən metallurgiya sənayesi məhsullarının istehsalının stimullaşdırılması sahəsindəçox uğurlu addımlar atılmışdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Daşkəsən metallurgiya kombinatı ölkənin energetika sənayesinin regiondakı ixrac potensialının daha dərindən araşdırılması, ixrac imkanlarının reallaşdırılması istiqamətində xeyli iş görülmüşdür. Artıq Azərbaycan zəngin təbii ehtiyatları potensialını nəzərə alaraq, regionlarda tikinti materiallarının ixracının şaxələndirilməsi üzrə ölkəmizdəki mövcud imkanların dərindən araşdırılması və real ixrac hədəflərinin müəyyənləşdirilməsi istiqamətində işlər aparılmışdır.

Qeyd etmək lazımdır ki, ölkəmizin kənd təsərrüfatı və aqrar sektor üzrə beynəlxalq ekspertlər tərəfindən qəbul edilən müqayisəli üstünlük elementləri, bu sahələrdəki yüksək potensialdan çıxış etsək, ixrac təyinatlı məhsulların dünya bazarlarına çıxarılması istiqamətində daha səmərəli tədbirlərin görülməsi, zəruri halda əlavə olaraq, yeni Dövlət proqramının, məsələn, “AR-nın kənd təsərrüfatı sektorunda və aqrar sənaye kompleksində 2015-2020-ci illərdə ixrac potensialının genişləndirilməsi tədbirlər üzrə Dövlət Proqramı”nın işlənib hazırlanmışdır. Son dövrdə respublikanın qeyri-neft ixracında yeyinti sənayesinin son dövrlərdə artan potensialının daha da gücləndirilməsi, tədbirlərin sayının və coğrafiyasının genişləndirilməsi, bu bir tərəfdən əhalinin ərzaqla təminatı təhlükəsizliyinə əlavə töhfələr verir, digər tərəfdən ixracın strukturunun diversifikasiyalaşdırılmasını intensivləşdirər.Bu isə daxili bazara yönələn  güclü tələbatla yanaşı, ixrac potensialı geniş olan yüngül sənaye sahəsinin yenidən qurulması proseslərinin sürətləndirilməsi, sahənin ixracyönümlü müəssislərinin yaradılmasına gətirib çıxarır. Azərbaycanda qeyri-neft ixrac potensialının artırılmasında müstəsna rolu olan regionların təsərrüfat subyektlərinin və xarici ticarət fəaliyyəti iştirakçılarının xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, onların maraqlarının müdafiəsinin gücləndirilməsi, bu sahədə səmərəli tədbirlərin görülməsi hesabına regionların qeyri-neft sektoru ixrac potensialının artırılmasında fəal iştirakının təmin edilməsi və s. məsələlərin araşdırılması olduqca vacibdir.



Milli iqtisadiyyatın qeyri-neft sənayesinin əsas sahələrindən biri olan kimya və neftkimya kompleksinin ixrac potensialının yenidən qiymətləndirilməsi, bu sahənin müəssisələrinin modernləşdirilməsi proseslərinin başa çatdırılması, yüksək texnologiyalar əsaslı ixrac yönümlü müəssisələrin yaradılması, əlavə dəyərin xüsusi çəkisi çox olan ixrac məhsullarının istehsalına önəm verilməsi, ixracın strukturunu genişləndirə biləcək məhsulların istehsalının genişləndirilməsi həyata keçirilməlidir. Nəhayət regionlarda ənənəvi güclü ixrac potensialı ilə fərqlənən maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi, istehsal olunan məhsulların dünya bazarlarına çıxarılması, ixrac prioritetlərinin müəyyənləşdirilməsi olduqca vacibdir.Bütün bu işlərin həyata keçirilməsində qeyri-neft sektoruna investisiya qoyuluşunun həcminin artması və onun tənzimləmə mexanizminin təkmilləşdirilməsi olduqca vacibdir.

**Nəticə**

Azərbaycan Respublikasında  reallaşdırılan  uğurlu neft strategiyası, qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ölkəmizin maliyyə imkanları ilbəil genişlənir. Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycan Respubliksaının sürətlə artmaqda olan valyuta ehtiyatları isə öz növbəsində bütün lazımi infrastruktur layihələrini vaxtında və müvəffəqiyyətlə reallaşdırmağa imkan verir.  Son dövrlər Azərbaycan dövləti  karbohidrogen ehtiyatlarından əldə etdiyi gəlirlər hesabına  milli iqtisadiyyatın  diversifikasiyası istiqamətində  xüsusən qeyri-neft sektoru üzrə uğurlu tədbirlər reallaşdırır. Azərbaycanda  qeyri-neft sektorunun investisiya  qoyuluşunun yüksəldilməsi üzrə üzrə aşagıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- ⇨ Qeyri-neft sektorunun milli  iqtisadiyyatdakı xüsusi çəkisinin artırılmasında, əmək məhsuldarlığının yüksəldilməsini təmin etməklə ölkə iqtisadiyyatının rəqabət

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

qabiliyyətinin artırılması və qeyd olunmuş sahələrin inkişafı məqsədilə regionlar üzrə sahəvi inkişaf proqramlarının tərtib edilməsi.

- Azərbaycanda xarici investisiyaların qeyri-neft sektorunun inkişafına yönəldilməsi üçün zəngin təbii-iqtisadi resurs ehtiyyatlarına malik olması mühüm üstünlükdür.
- Ayrı-ayrı iqtisadi sahələri üzrə xarici investisiyaların cəlbinin yüksəldilməsi ilə yanaşı, milli iqtisadiyyatda gəlirlətin və real yığım hesabına daxili maliyyə mənbələrinin genişləndirilməsi, daxili investisiya qoyuluşlarının ilbəil artımını təmin etmək zəruridir.
- Respublikada müxtəlif layihələr çərçivəsində özəl sektorun kreditləşməsi ilə məşğul olan maliyyə-kredit təşkilatların fəaliyyətinin effektivliyinin artırılması, bu sahədə idarəetmənin asanlaşdırılması üçün koordinasiya şurasının formalaşdırılması ən vacib şərtlərdən biridir.

**Ədəbiyyat**

1.Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirə B, 07.01.2021 (Xalq qəzeti).
2. Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritələri 6 dekabr2016
3.Regionların Sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları (4 Dövlət Proqramı).
4.”Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər” B, 02.02.2021.
5.A.Şəkərəliyev, Q.Şəkərəliyev “Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər.B,2016.
6.İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi http://www.Freeconomy .az.
7.Алиев.Ш.Т. «Вопросы развития химической промышленности Азербайджанской Республики // Химическая промышленность России сегодня №8, Москва 2010, с 5-9.
8.Kərimova T.İ.İqtisadiyyatın investisiya potensialı:formalaşması və istifadə mexanizmləri B, 2008, s 224.
9.Бабашкина А.М.Инвестиции М, «Финансы и статистика», 2007,с 256.
10.DSK-nın məlumatları, B, 2020.



***Зибейда Ариф гызы Шакаралиева***

***Инвестиции в ненефтяной сектор и его регулирование***

***Резюме***

*В наше время нефтяной фактор в нашей стране играет важную роль в формировании макроэкономических параметров и оказывает решающее влияние на экономическое развитие страны. В этом контексте возникает необходимость в полной мере реализовать потенциал развития ненефтяного сектора, который включает создание экономических механизмов, обеспечивающих его надежную защиту от негативного воздействия внешних факторов в результате комплексного развития экономики страны. в долгосрочной перспективе. Последние 10 лет были знаменательными для нашего народа, были достигнуты высокие успехи в экономической и социальной жизни нашей республики. Благодаря решимости и уверенности нашего государства в реализации модели национального экономического развития, заложенной общенациональным лидером Гейдаром Алиевым за короткий период времени, Азербайджан пережил период стремительного развития, большинство проблем были решены. Стабильность и диверсификация экономики экономия обеспечена, конкретные программы и все социальные проекты, принятые в любом направлении, реализованы в срок.*

***Ключевые слова:*** *ненефтяной сектор, инвестиции, импорт-экспорт, регулирование инвестиций, ненефтяная промышленность.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**_Zibeyda Arif Shakaraliyeva_**

**_Investment in the non-oil sector and its regulation_**

**_Summary_**

*In modern times, the oil factor in our country plays an important role in the formation of macroeconomic parameters and has a decisive impact on the economic development of the country. In this context, there is a need to fully realize the development potential of the non-oil sector, which includes the creation of economic mechanisms that ensure its reliable protection from the negative effects of external factors as a result of comprehensive development of the country's economy in the long run.*

*The last 10 years have been significant for our people, high achievements have been made in the economic and social life of our republic. Thanks to the determination and confidence of our state to implement the national economic development model founded by national leader Heydar Aliyev in a short period of time, Azerbaijan has experienced a period of rapid development, most of the problems have been resolved. stability and diversification of the economy were ensured, specific programs and all social projects adopted in any direction were implemented on time.*

***Keywords:*** *non-oil sector, investment, business export, investment regulation, non-oil industry*



***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 03.08.2021.***
***Çapa qəbul olunub: 10.08.2021.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*